# Yaşıllıq sahələrinin artırılması iqlim dəyişmələri ilə mübarizəyə töhfədir



***Bu** ilin yanvar ayından başlayaraq respublikamızın bütün bölgələrində meşəbərpa tədbirləri həyata keçirilir. İqlimə və relyefə uyğun olaraq ağaclar əkilir. Məqsəd yaşıllıq sahələrinin artırılmasını təşviq etmək, ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmini və iqlim dəyişmələri ilə mübarizəyə töhfə verməkdir.*

Rayonların meşə fondu torpaqlarında aparılan meşəbərpa tədbirlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, rayon icra hakimiyyətlərinin, Meşələrin İnkişafı Xidmətinin və regional ekologiya idarələrinin əməkdaşları fəal iştirak edirlər. Belə ki, yanvar ayında Ağstafa rayonundakı Poylu meşəbəyliyinin 1,2 hektar sahəsində 1500 ədəd Şərq çinarı, Tovuz rayonu ərazisindəki Qovlar meşəbəyliyinin zərərverici və xəstəliklərə yoluxaraq qurumuş şam ağacı meşəliyinin 3 hektarında aparılan meşəbərpa tədbirlərində isə 2500-dən artıq Eldar şamı ağacı əkilib.



İlin ilk ayının son həftəsində - yanvarın 25-də isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə Bakının Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib. Hər iki qurumun rəsmilərinin və əməkdaşlarının, eyni zamanda könüllülərin iştirakı ilə keçirilən aksiya çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Yevlax rayonu Cırdaxan meşəbəyliyinin əvvəllər zərərverici və xəstəliklərə yoluxaraq qurumuş ərazisində Şərq çinarı və Eldar şamı ağacları, Ağdaş rayonunun meşə fondu torpağında Şərq çinarı ağacları əkilib. Bir gün ərzində Yevlax və Ağdaş rayonlarının meşə fondu torpaqlarını ümumilikdə 3500-dən çox ağac bəzəyib.

Növbəti meşəbərpa tədbirləri Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının meşə fondu torpaqlarının açıq və seyrək ərazilərində olub. Meşəbərpa tədbirləri zamanı ümumilikdə 8 mindən artıq palıd, cökə, Eldar şamı və qoz tingi əkilib.

Ötən ayın ilk günlərində "Azərbaycan Gəncləri Günü"nə həsr olunmuş ağacəkmə aksiyasında Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağaclarına yeni həyat verilib.

Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Regional Meşə Təsərrüfatı Mərkəzlərinin əməkdaşları tərəfindən ölkənin meşə fondu torpaqlarında meşəbərpa tədbirləri aparılıb. Tovuz, Sabirabad, İsmayıllı, Ağcabədi, Göygöl, Masallı, Bərdə və Qəbələ rayonlarının meşə fondu ərazilərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə 6130 ədəd palıd, ağcaqayın, Eldar şamı, Şərq çinarı ağacı əkilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi Xocalı faciəsi ilə əlaqədar olaraq Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirib. Nazirliyin əməkdaşları faciə qurbanlarının əziz xatirəsini əbədiləşdirmək məqsədilə ərazidə 613 ədəd zeytun ağacı əkib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə meşə sahələrinin seyrəkləşməsinin və azalmasının, torpaqların eroziyası və təbii biosenozların yoxa çıxması təhlükəsinin qarşısının alınması və bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə 2024-cü ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 7520,4 hektar sahədə və ya əvvəlki illə müqayisədə 9,8 faiz çox meşə fondu sahələrində meşəbərpa tədbirləri həyata keçirilmişdir. Görülmüş tədbirlər çərçivəsində 807,6 hektar sahədə meşə əkinləri, 672,8 hektar sahədə meşə səpinləri işləri aparılmış, 21 hektar sahədə meşə-bağlar, 10 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınmış, 4 hektar sahədə yenidənəkmə (rekonstruksiya) üsulu ilə əkin aparılmış və 6005 hektar sahədə təbii bərpaya kömək göstərilmişdir. Ümumilikdə, xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə bağlarının sahəsi 20881,8 hektar təşkil etmişdir.

Bundan başqa, toxmacar və cavan bitki şitilləri yetişdirmək məqsədilə 17,9 hektar sahəyə toxumlar səpilmiş, çilik köklərdirməsi məqsədilə 1,1 hektar sahəyə 60 min ədəd çilik basdırılmışdır.

2024-cü ildə meşə fondu sahələrindən 108,5 ton və ya əvvəlki illə müqayisədə 8,6 faiz çox meyvə, meşə-ağac və kol cinslərinin toxumları tədarük edilmişdir ki, bunların da 105.5 tonu meşə-ağac və kol cinsləri toxumlarının, 3 tonu isə meyvə ağacları toxumlarının payına düşmüşdür.

**M.CƏFƏROV,**
**"Respublika".**

Respublika .- 2025.- 14 mart (№ 56).- S.17.